# O, şəxsiyyət idi

**...İllər keçir. İllər keçdikcə gözəl insan, gözəl dost, gözəl həkim Teymur Babayevin yeri daha çox görünür; onun kimi ziyalılara, ürəyi xalqla döyünən, elnən nəfəs alan insanlara, görkəmli şəxsiyyətlərə, alimlərə, əsl vətəndaşlara...daha çox ehtiyac hiss olunur.**

Tibb elmləri doktoru, professor Teymur Babayev bir həkim-cərrah kimi xalqa, Vətənə göstərdiyi xidmətlərə görə "Tərəqqi" medalı ilə təltif olunub. O, iyirmi il kafedra müdiri işləyərək, müstəqil Azərbaycanın milli tibb elminin inkişafı üçün gərəkli və faydalı işlər görmüşdür.

Uzun illər indiki Tibb Universitetinin üz-çənə cərrahiyyə kafedrasında çalışan, 10 nəfər tibb elmləri namizədi və 1 nəfər elmlər doktou hazırlayan professor Teymur Babayevin imzası Azərbaycan tibb elminin səhifələrindən heç zaman silinməyəcəkdir.

O böyük insan, işıqlı, nurlu ziyalı haqq dünyasına qovuşsa da bir gün də unudulmayıb. Onun kimi xeyirxah insanlar, böyük şəxsiyyətlər, Vətən üçün, millət üçün faydalı iş görənlər, millətin imzasını imzalar içində tanıdanlar, xalqın sağlamlığı keşiyində dayananlar unudularmı?

Professor Teymur Babayev elə bir ziyalıydı ki, işığından hamıya pay düşürdü. O, insanlığı, xeyirxahlığı, ləyaqəti, məhəbbəti, düzlüyü, halallığı, mərdliyi, kişiliyi yaşadan bir insan idi. Onun kimi hörmətli və şöhrətli insanlar haqq dünyasına qovuşsalar da heç zaman unudulmurlar, həmişə məhəbbətlə yada düşürlər. Teymur müəllim heç zaman unudulmayacaq, həmişə anılacaq, yada düşəcək şəxsiyyətlərdəndi.

O böyük insan, o böyük şəxsiyyət yaşasaydı sentyabr ayının 11-də 86 yaşı tamam olacaqdı. Təəssüf ki, o, bizim sıralarımızı tərk elədi. Özü getsə də ürəklərdə xoş xatirəsi qaldı. Tibb Universitetinin üz-çənə cərrahiyyə şöbəsində - həkim yoldaşlarının, müəllim və tələbələrinin qəlbində silinməz izi qaldı.

Professor Teymur Babayevin - dünya şöhrətli cərrah-həkimin ruhu həmişə bizimlədir.

O, böyük şəxsiyyət idi, xeyirxahlıq simvolu idi, ləyaqət simvolu idi.

O böyük alim, o nurlu ziyalı, o gözəl həkim öz vicdanının diktəsilə böyük işlər görürdü. Çünki o, əsl şəxsiyyət idi. O, əsl şəxsiyyət kimi insanlığın ən uca zirvəsində - kamillik zirvəsində yer almışdı. O, nurlu, işıqlı adam idi. İşığından hamıya pay düşürdü.

O, hamını işığına çağırırdı, işığıyla çağırırdı. Onun işığına üz tutub gəlirdilər, onun işığıyla haqqa doğru üz tutub gedirdilər.

Professor Teymur Babayevin işığı bu gün də yolumuzu aydınlaşdırır. Yüz illər keçsə də onun işığı sönməyəcək, çünki onun işığı kitablarından, monoqrafiyalarından süzülür.

Teymur müəllim bir şəxsiyyət kimi daha çox xatırlanır, daha çox yad edilir. Axı hər alim, hər elm adamı şəxsiyyət ola bilməz, şəxsiyyət olmaq üçün ilk növbədə gərək əsl insan, əsl vətəndaş olasan, kamil insan olasan.

Əsl şəxsiyyət necə olmalıdır? Bu sualın cavabını professor Teymur Babayevin şərəfli və mənalı həyat yolunda, ömür səhifələrində tapmaq mümkündür.

Teymur müəllim şəxsiyyət kimi doğulmuşdu. Şəxsiyyət elmlə, biliklə, vəzifə ilə, vardövlətlə qazanılmır. Şəxsiyyət də istedad kimi Tanrı vergisidir və şəxsiyyət kimi yetişmək hər kəsə qismət olmur.

Şəxsiyyəti təbiət, çəkilən zəhmət, xeyirxahlıq, Allaha bağlılıq, qazanılan savab işlər... daha da saflaşdırır, bulaq suyu kimi duruldur, işıq kimi cəmiyyətə təqdim edir.

Şəxsiyyət həm də gendən və qandan gəlməlidir. Bunun üçün insanın əsli saf, nəsli saf olmalıdır. Əsli və nəsli saf olmayan şəxsiyyət kimi yetişə bilməz.

Tibb elmləri doktoru, professor Teymur Babayev Bakı şəhərində dünyaya göz açmışdı. 2 saylı orta məktəbi 1956-cı ildə bitirmişdi. Sonra indiki Tibb Universitetinin stomatologiya fakültəsində təhsil almışdı. O, tanınmış nəsilin, sayılıb-seçilən nəsilin nümayəndəsi idi. Damarlarında mərdlik, xeyirxahlıq, kişilik qanı axırdı.

Ən qüvvətli genə, ən təmiz qana malik olan Teymur müəllim sanki işıqdan, nurdan, ruhdan yaranmışdı. Bu nur, bu işıq onun gələcək taleyini müəyyən eləmişdi.

Hərdən öz-özümə düşünürəm. Düşünürəm ki, həyat ona gözəldir ki, dünyada Teymur Babayev kimi işıqlı, nurlu insanlar yaşayır. İşıqlı adamlar olmasaydı dünya qaranlığa qərq olardı. Dünyanı qaranlığa qərq olmağa qoymayan ziyalılardan idi professor Teymur Babayev.

Teymur müəllim vətəni çox sevirdi, Azərbaycanı qarış-qarış gəzib-dolaşmışdı. Vətəni sevmək də şəxsiyyətin əlamətlərindən biridir. Bu sevginin üstünə danışdığın dilə və mənsub olduğun dinə olan sevgini, məhəbbəti də əlavə etsək, Teymur müəllimin şəxsiyyəti önündə baş əyməmək mümkün deyil.

Yurd yerlərinə çox bağlıydı. Ürəyi Azərbaycanla çırpınırdı, ürəyi Təbrizlə, Borçalı ilə, Zəngəzurla, Göyçə ilə... çırpınırdı.




Şuşanın, Laçının, Qubadlının, Zəngilanın, Kəlbəcərin, Şuşanın... işğalı ilə bağlı heç cürə barışa bilmirdi. 1991-1994-cü illərdə üz-çənə nahiyyəsindən yaralanan əsgər və zabitlər müalicə almaq məqsədilə 1 saylı Şəhər Klinik Xəstəxanasının üz-çənə cərrahiyyə şöbəsinə yerləşdirilirdilər.

Həmin əsgər və zabitlərin müalicəsi və reabilitasiyası üçün professor Teymur Babayevin böyük zəhməti olmuşdur. Məhz həmin illərdə 300 nəfərdən çox yaralı əsgər və zabit müalicə olunmuşdu.

Teymur müəllim xeyirxah insan idi, mərhəmətli insan idi. Mərhəmətli və xeyirxah olmaq şəxsiyyətin mənəvi kamilliyinin göstəricisidir.

O, həm də cəsarətli adam idi. Haqsızlıq önündə susmazdı. Haqqın yanında dayanıb, haqqa söykənib, haqqı danışardı.

Haqqı danışmaq, haqqı söyləmək şəxsiyyətə xas olan xüsusiyyətlərdən sayılır. Teymur Babayev bir şəxsiyyət olaraq ədalətsizliklə üzləşəndə, ən gərgin anlarda, psixoloji şəraitdə belə özünü itirməzdi, öz əqidəsinə sadiq qalardı, öz haqlı fikirlərindən daşınmazdı. O, gözü-könlü tox adam idi. Nəfsinə qalib gəlməyi bacarırdı. Heç vaxt nəfsin daxili burulğanına düşüb çırpınmazdı. O, sərvətlə şöhrət qazanmamışdı, çünki sərvəti yox idi.

O, əsl insan olmasıyla, əsl ziyalı və vətəndaş olmasıyla şöhrət qazanmışdı, halal süfrəsinə haram tikə qoymamışdı. Dünyanın sərvətində, vardövlətində gözü olmadı. Dünya malının dünyada qalacağını yaxşı bilirdi. Yaxşı bilirdi ki, dünyada yaxşılıq qalacaq, yaxşı ad qalacaq, bir də ki, xeyirxah əməllər qalacaq.

O böyük insandan yaxşılıq qaldı, yaxşı ad qaldı. O böyük insandan vardövlət qalmadı, sərvət qalmadı. O böyük insanın sərvəti onun şəxsiyyəti idi.

Bir şəxsiyyət kimi heç kimə yox, özünə arxalanırdı, özünə güvənirdi, heç kimə söykənmirdi, ona söykənirdilər. O, nəinki insanların dayağı, hətta bəşəriyyətin sütunlarından biri sayılırdı. Çünki o, şəxsiyyət idi. Və bir şəxsiyyət olaraq keçmişi öyrənə-öyrənə gələcəyə baxırdı. Gələcəyi görürdü və gələcəkdən narahat olmağa başlayırdı. Çünki o, şəxsiyyət idi və bir şəxsiyyət kimi bu günə, sabaha cavabdeh sayılırdı.

O, dünyanın ədalətlilik prinsipilə idarə olunmasını istəyirdi, ədalətli cəmiyyət, təmiz dünya arzulayırdı. Qarabağın işğaldan azad olunmasını arzulayırdı. Ədalətsizlik, haqsızlıq, zorun tətbiqi, gücün hökmranlığı onu bir şəxsiyyət kimi çox narahat edirdi.

Ədalətsiz hakim, savadsız həkim və müəllim, istedadsız şair, zorən alim... onu əsəbiləşdirirdi, onları görmək istəmirdi, çünki o, şəxsiyyət idi və bir şəxsiyyət olaraq kütləyə qoşula bilməzdi, çünki o bir şəxsiyyət kimi xalqın, millətin döyünən ürəyi, görən gözü, düşünən beyni idi.

Professor Teymur Babayev özünün və sözünün ağası idi. O, sözünün arxasında dayanan güclü bir şəxsiyyət olaraq diqqəti cəlb edirdi. Sözü həmişə kəsərli olardı, sözü yerə düşməzdi və o, mənliyi, qeyrəti olmayan adamlara ağız açmazdı, söz deməzdi. Çünki o, şəxsiyyət idi. Şəxsiyyət olduğuna görə də sözünün gözəlliyi vardı, estetik təsir gücü vardı. Bəli, arxasında şəxsiyyət dayanmayan söz urvatdan düşər.

Teymur müəllim söz deməyi də, sözə dəyər verməyi də yaxşı bacarırdı, gözəl və aydın danışığı ilə seçilirdi. Gözəl danışığı şəxsiyyətinin gözəlliyilə həmahəng təşkil eləyirdi.

O, xoş sözlə bağlı qapıları aça bilirdi, işlətdiyi dərin və mənalı sözlərilə öz fikrinin təsir gücünü daha da artırırdı.

Fikirləşmədən söz deməzdi. İmkan verməzdi ki, sözü fikrini qabaqlasın və o, həmişə nə danışacağını, nə deyəcəyini yaxşı bilirdi. Onunla bütün mövzularda söhbət eləmək olardı. O, təkcə, tibb elminə, təbiət elmlərinə bələd deyildi, o, ictimai-siyasi hadisələrə də düzgün qiymət verirdi, bir sözlə, elmdən də, siyasətdən də söhbət açırdı. O, bircə özündən danışmağı sevmirdi, bir də heç kim haqqında pis şey danışmazdı, çünki əlindən pislik gəlmirdi, çünki o, şəxsiyyət idi. Çünki onun ürəyi xeyirxahlıqla, yaxşılıqla döyünürdü, qəlbi elmin və haqqın yolunda çırpınırdı.

Professor Teymur Babayev həm alim, həm də şəxsiyyət kimi çox güclü adam idi, çox nufuzlu və şöhrətli adam idi.

O, intellekiual mədəniyyətə malik bir insan olaraq həm bilikli idi, həm də müdrik idi. Müdriklik onun şəxsi keyfiyyətlərində də özünü göstərirdi.

O, ədalətli insan idi, ədalətə söykənirdi. Allahın verdiyi istedadı xalq üçün, dövlət üçün xərcləyirdi. Onun elmindən, müdrikliyindən xalq da, dövlət də yararlanırdı. Onun faydalı elmindən, nüfuzundan hamı istifadə eləyirdi.

Teymur müəllim insanlığın günəşi idi, çünki o, şəxsiyyət idi və bir şəxsiyyət olaraq bu gün də məhəbbətlə xatırlanır, sabah da məhəbbətlə xatırlanacaqdır.

Professor Teymur Babayev unudulası mümkün olmayan şəxsiyyətdir. O, xalqın qan yaddaşında əbədi olaraq yaşayacaqdır, çünki xalq ancaq sevdiyi insanları yadda saxlayır.

Teymur müəllim sağlığında xalqın sevimlisi idi, dünyasını dəyişəndən sonra adı tarixin bəzəyi oldu. Bu, insan üçün ən böyük səadətdir.

**Bəli, tibb elmləri doktoru, professor Teymur Babayev şəxsiyyət idi, özü də böyük şəxsiyyət idi.**

**Fərman HƏSƏNOV,**
**tibb üzrə fəlsəfə doktoru**